# "MÜHARİBƏ"DƏN REPORTAJ

*yaxud Nübar Eldarqızına düşüncələr məktubu...*



Bu essevari düşüncələri sosial şəbəkələrin diktəsi ilə dan üzü çağında yazmalı oldum. Səbəb də bu idi ki, N.Eldarqızının 22.03.2022-ci il tarixdə yazdığı "Müharibə" şeirini oxudum. Müəllifin, ümumiyyətlə müharibəni görüb-görmədiyi haqqında mübahisəli, etiraz doğura biləcək nəsə bir dəlilim də yoxdur. Ancaq mənə elə gəldi ki, N.Eldarqızının "Müharibə"sində o, özü müharibənin iştirakçısıdır. Qoy hər kəs bu misraları oxusun, bəlkə, elə mən deyən doğrudur:

Bomba atıldı,
Doğum evi dağıldı...
Elə o anda sığınacaqda
Bir körpə doğuldu.
Sonra daha bir,
Daha bir, daha bir...
Xəbəri göndərdi öz ölkəsinə
xarici müxbir.
Bir kadr da paylaşdı:
- Bu, xaraba doğum evi,
Və bu da doğulan körpə!
Rəsmin adı - Müharibə!
İnsanlar qonşu ölkələrə,
üzlərinə açılan
qapılara qaçır,
Qoca, qadın, uşaq...
Yorulmuş, yaralı, üzü-gözü
Qara-qançır...
Neytral zonada yenə bir uşaq doğulur,
Yenə bir körpə!..
Nə yazılacaq
"Doğum yeri"qrafasına-
Müharibə?!

Bəli, poetik düşüncə mənzərəni kifayət qədər sözə gətirə bilən istedadla savaşın arasından göyərə bilib, bitə bilib. Əsas da odur ki, müəllif sanki müharibə adlı bir tabloya baxır, bəlkə də müharibənin bircə anını gözünün önünə gətirir. Başqa sözlə desək, həmin o bircə anlığın əbədiləşmiş görüntüsü əsasında öz düşüncələrini sözə çevirir.

Mən buradaca sözü çox uzada bilərdim. Amma istəyirəm ki, oxucu nə deyəcəyimdən daha əvvəl N.Eldarqızının "Müharibə"si ilə özü tanış olsun, daha yaxından tanış olsun:

Müharibə gedən şəhər
Ağrı hissini itirib;
Evləri, binaları, ən gözəl xatirələri
yıxılır,
- Amma ağlamır;
Çünki ağlamağa vaxtı yoxdur,
Hələ ki,
Dağılmağa davam etməlidir...
Vladimir Vısotskini andıran səsiylə,
Oxuya-oxuya gedən əsgər
maşını düz ölümün üstünə sürür!..
Bu ölümün də baxtı yoxdur!

Bundan sonrası mənlikdir, yəni sözü zamanına uyğun şərhə çəkmək artıq məni düşüncələrimdən keçəcək tərəfdir. Dedim axı, səhər çağıdır...

Nübar Eldarqızı, sabahın xeyir olsun... Dilimizin ənənəsinə çevrilmiş xeyir diləyən sözlərə demək olar ki, heç vaxt xüsusi əhəmiyyət verməmişik... "Heç vaxt" sözü deyəsən bir az yerinə düşmür. Yadımdadır, 90-cı illərin əvvəllərində bizim Cəbrayılda sabaha bir iş nəzərdə olurdusa, deyirdilər ki, səhər açılsın, xeyir gəlsin, görək... Çünki, insanların düşüncəsində sağ qalmaq uğrunda inam və şübhə savaşı gedirdi...

Sənin "Müharibə" şeirini oxuyanda sanki, bəşər nəslinin inam və şübhə savaşını, bu savaşda şübhənin, nəticədə şərin qələbəsi qorxusunun mahiyyətini anladım... Və bir daha bildim ki, həmin xeyir diləyən istək haradan, necə yaranıb...

Müharibə... dilindən şəri carçılayanın susmağa vadar edilməsinin qisasıdır, dəhşət dilində... Müharibə vahimənin hərəkətdə olan rəsmidir. Burada müharibə sözünün dırnağa alınması zərurət deyil, çünki sən müharibəni bütün dəhşət dili və vahimə rəsmi ilə şeirə gətirmisən...

Birinci Qarabağ savaşında snayper atəşi altında olmuşam, başıma çox yaxın məsafədən keçən vızıltı səslərinə heç əhəmiyyət vermirdim... Uzandığım kolun arxasından məni Ramil adlı gənc aşağı çəkdi... Cəbrayılda yol polisi idi və həmin döyüşdə o da iştirak edirdi. Dedi ki, ay müəllim, bir az aşağı çəkil, erməni snayperi səni görür... Bu qeydlərimin sənə çatınca tərəfi düşüncə zamanımla bağlı fasilələr yaradır. Mən əslində, bu qeydləri yazmazdan qabaq, çox qabaq həmin snayperin gülləsi ilə ölməliydim.

Yox, qismətimdə sağ qalmaq varmış... Sonra o gənc polis başımı söykədiyim koldan güllələri çıxardı... Başıma dəyəsi güllələri.

İndi o vaxtdan məndə güllə səsinə həssaslıq sindromu yaşanır.

Sənin "Müharibə"n həmin hissi daha betər bir duyğu ilə yaddaşımda oyatdı. Zatən mən heç müharibədən ayrılmadım. Nəvələrimin döyüş yolu, övladlarımın od-alov içində olması, elə indi Ceyhunumun Kəlbəcər yolu... Bu düşüncə ilə gərək mən savaşa bir az biganə yön tutaydım...

Yox, sənin "Müharibə"n ruhumda çaxnaşma yaratdı...

Səngərdən, qandan, hələ öpüş görməyən dodaqların quraqdan solmuş ləçəklərə bənzər soluşunu yanındaca görməyən birisi qəhrəmanlıqdan danışar... Hətta alqışları da yığıb yığışdıra bilməz. Amma sənin "Müharibə"n acı həqiqəti, səsi, qanı, xarabalıqları ilə duyğulara köçürür, yaddaşa hopdurur...

Deyirəm, görəsən bombalar altında doğulan uşaqlar sağ qalsalar vahimə sindromu ilə neçə il yaşaya biləcəklər?! Bəzi misraları oxuyanda səksənmələrim oldu. Səsi eşidirdim... Vahimə gözlərimin önünə gəlirdi...

Sən inamınla şübhəyə, xeyirinlə şərə, uşaq doğuşunda ağrı çəkməyinlə ölümə qarşı savaşırsan... Bir sözlə, ruhunla haqqın yanındasan...

MÜHARİBƏ mətnin bu yerində mövqe tutacaq... Bilmirəm bəlkə, təzədən fikir səngərlərində qarşılaşmalar oldu...

Nübar Eldarqızı... Özünü də qoru... Cəbhədə ölüm üçün fərq etməz sən sülh, olum diləkli şairsən... Sözün həqiqi mənasında od içindən reportaj müharibənin iştirakçısı olduğuna şübhə yeri qoymur... Sənin "Müharibə"n doğru deyir; ölüm elə olumun qənimidir...

Bilmirəm atan, anan müharibədə olduğunu bilirlərmi...

Sabahın xeyir olsun, - dedim. Axı körpələri əjdaha ağzına yığan gecə hər səhərə xeyir gətirmir. Vaxtın olsa məktubumu aldığını yazarsan... Burda çox soyuqdur... bu yaz gec gəlir... Qış sərhədlərinə çəkilmək istəmir...

Sərhədlər pozulanda təkcə cəmiyyətin ahəngi dağılmır, həm də təbiətin harmoniyası pozulur. Günəşin görünməsi ümidə, nəticədə inama yardımdır.

Günəşə güvən...

Əli Rza Xələfli

*Lökbatan, 23.03.2022*

Kredo $g 2022.- 17 noyabr.- S.2.